# VƏTƏN SEVGİSİ

EMİL YAQUBOV



TEAS PRESS

EMİL YAQUBOV

# VƏTƏN SEVGİSİ



EMİL YAQUBOV

# VƏTƏN SEVGİSİ

TEAS PRESS

Emil Yaqubov

Vətən sevgisi

Bakı, TEAS Press Nəşriyyat evi, 2017, 60 s.

ISBN 978 9952 515 08 4

Bu kitab ilk dəfə 1992-ci ildə nəşr olunub və həmin nəşr əsasında TEAS Press Nəşriyyat evində təkrar çapa hazırlanıb.
Əsərin nəşri hüququ TEAS Press Nəşriyyat evinə məxsusdur.

www.teaspress.az
Bütün hüquqlar qorunur.

© TEAS Press Nəşriyyat evi, 2017

Türkiyədə çap edilib.

Bilnet Matbaacılık ve Ambalaj Sanayi A.Ş.
Dudullu Organize Sanayi Bölgesi 1. Cadde No: 16
Ümraniye / İstanbul
Tel: 444 44 03 Faks: (216) 365 99 07
www.bilnet.net.tr

# MÜNDƏRİCAT

*Səməd Vurğunu heyran edən 19 yaşlı şair* / 7

Qəhrəmanlar / 11

M.F.Axundova / 12

Sabir üçün / 14

Puşkinə / 16

Azad qadına / 17

Vətən sevgisi / 18

Böyük gürcü şairi Şota Rustaveliyə / 19

Papaninçilərə salam / 20

Gözəldir / 22

And / 23

Hərbə qarşı / 25

And içirəm / 26

Gözəl Vətən / 27

Dostluq / 29

Nizami / 31

Bahar / 34

Faşizmə nifrət / 36

Qorxmaz nəsil / 37

Mən əsgər gedirəm / 38
Ölkəmin / 39
Azərbaycanım / 40
Qızılgül / 42
Zəfər nəğməsi / 43
"Qızıl Quba"ya / 44
Bir gecə... / 46
Vətən / 48
Sevinc bayramı / 50
Ürək sözlərim / 51
Bayatılar / 53
Rübailər / 54
T.Q.Şevçenkoya / 55
Gəncliyim / 56
Qanadlı qız / 57

# SƏMƏD VURĞUNU HEYRAN EDƏN 19 YAŞLI ŞAİR

...15 yaşından şeir yazmağa başladı, qısa müddət ərzində nəinki doğulduğu rayonda tanındı və sevildi, fitri istedadının sorağı tezliklə hətta ölkə miqyasına yayıldı. Gənc şair dövrünün görkəmli ədiblərinin, o cümlədən böyük Səməd Vurğunun diqqətini cəlb etdi, şəxsən onun xeyir-duasını aldı. 19 yaşında isə qələmini silahla əvəz edib vətənin müdafiəsinə qalxdı, az sonra qəhrəmancasına həlak oldu. Ondan yalnız bir neçə fotoşəkil, gözəl şeirlər, bir də nisgilli xatirələr qaldı...

Həmin şair Emil Yaqubov idi... Bu nakam şairin adı indiki nəsillərə, bəlkə də, çox şey deməyə bilər. Amma o, heç vaxt unudulmayıb, xalqın yaddaşında hələ də yaşayır.

Milliyyətcə yəhudi olan Emil İshaq oğlu Yaqubov Quba rayonunda doğulub boya-başa çatmışdı. İstedadı çox tez parlayan gənc şair Azərbaycan və tat dillərində yazdığı şeirləri ilə qısa vaxt içində seçildi, sevildi. Bütün gənclər kimi, onun da böyük arzuları vardı. Amma birdən-birə hər şey alt-üst oldu. Əgər 1941-ci ilin o dəhşətli yayı, müharibə aman versəydi... Onun o qədər arzuları vardı ki...

Emil Yaqubovu yaxşı tanıyanlar onun necə böyük arzularla, həyat və yazıb-yaratmaq eşqi ilə yaşadığını bu gün də xatırlayırlar. Nakam şairin məktəb yoldaşı, Azərbaycanın "Maarif əlaçısı" olan tanınmış pedaqoq

Simon İzrayevin xatirələrindən: "Emil Yaqubovu hələ də unuda bilmirəm. Quba şəhərindəki beynəlmiləl orta məktəbdə bir yerdə oxumuşduq. Emil Yaqubov öz iti zəkası, hazırcavablığı, dərin biliyi və çalışqanlığı ilə yaşıdlarından fərqlənirdi. O həm də məktəbin divar qəzetinin redaktoru idi. Divar qəzetində oxuduğu məktəbin şagirdlərinin təlim-tərbiyə məsələlərinə həsr olunmuş maraqlı məqalələrlə çıxış edirdi. Onun doğma torpağa, vətənə, xalqlar dostluğuna həsr etdiyi şeirləri də həmin divar qəzetində dərc olunur, şagirdlər və məktəb kollektivi onları maraqla oxuyurdu. Emil Yaqubov həm də çox yaxşı, sədaqətli dost idi, səmimiyyəti, həssaslığı ilə seçilirdi. Vaxtını faydalı işlərə sərf edirdi, üstəlik bütün dərslərindən də əla qiymətlər alırdı. Ədəbiyyat fənninə isə xüsusi marağı vardı. Onun şeirləri həm respublika mətbuatında, həm də Qubada nəşr olunan "Qızıl Quba" qəzetində tez-tez dərc edilirdi. Emilin yaradıcılıq uğurlarına nəinki onun şagird yoldaşları, həm də qəsəbə ziyalıları çox sevinirdilər. Emil hamının sevimlisi idi".

1940-cı ildə 19 yaşlı gənc Emilin adı bütün Qubada tanındı, fəxrlə çəkildi. Həmin il böyük Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsinə bütün respublikada geniş hazırlıq işləri gedirdi. Bu hazırlıq işləri ilə bağlı Qubada da təntənəli yığıncaq keçirildi. Emil Yaqubov Azərbaycanın görkəmli ədiblərinin, tanınmış mədəniyyət və incəsənət xadimlərinin də iştirak etdiyi həmin yığıncaqda özünün "Nizami" şeirini oxudu. Emil Yaqubovun sürəkli alqışlarla qarşılanan çıxışı bu təntənəli gecədə iştirak edən Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, böyük şairimiz Səməd

Vurğunun diqqətini dərhal cəlb etdi. O, Emil Yaqubovu təbrik etdi, gənc şairə poeziyanın keşməkeşli yolları ilə inamla addımlamağı məsləhət gördü. Dövrünün istedadlı şairlərindən biri olacağına ümid bəslədiyini bildirdi. Gənc qubalı şairin istedadı böyük Səməd Vurğunda o qədər dərin təəssürat oyatmışdı ki, bu comərd insan tədbirdən sonra ona bir dəst kostyum da hədiyyə etmişdi.

Görkəmli şairin bu alicənablığı, insani keyfiyyəti və qeyri-adi hədiyyəsi barədə şair Cavad Cavadlının "Azərbaycan müəllimi" qəzetinin 12 aprel, 1968-ci il tarixli sayında dərc olunmuş "Nakam döyüşçünü düşünərkən" adlı məqaləsində və yazıçı Şəmistan Nəzirlinin "Vurğun keçib bu yerlərdən" (1978) adlı kitabında geniş bəhs olunur.

Emil Yaqubov vətən qarşısındakı borcunu yerinə yetirmək üçün 1940-cı ildə sovet ordusu sıralarına hərbi xidmətə çağırılıb. Bununla əlaqədar olaraq "Qızıl Quba" qəzetinin 23 sentyabr, 1940-cı il tarixli nömrəsində maraqlı məqalə ilə çıxış edərək qəlbinin dərinliyindən gələn arzularını ifadə etmişdi. 19 yaşlı gənc həmin məqaləsində vətənə sədaqətlə xidmət edəcəyinə and içir, hərbi andına sadiq qalacağını, sərhədlərimizi göz bəbəyi kimi qoruyacağını bildirirdi. Bu andına da sadiq qaldı. Emil ordu sıralarında xidmət edərkən Böyük Vətən müharibəsi başladı. Müharibə ürəyi vətən sevgisi ilə döyünən bu istedadlı gənci Ukraynanın Lvov şəhərində yaxaladı. İlk gündən döyüşlərə atılan, məktubları qəfildən kəsilən Emil Yaqubov da bu dəhşətli müharibənin çoxmilyonlu qurbanlarından birinə çevrildi. O, fədakarlıqla vuruşaraq qəhrəmancasına

həlak oldu. Azərbaycan öz qəhrəman oğlunu unutmadı. 1972-ci ildə Azərbaycan Dövlət Televiziyasının "Hünər" proqramında Emil Yaqubova həsr olunmuş xüsusi veriliş hazırlandı, nakam şair uzun illərdən sonra xalqa daha yaxından tanıdıldı.

Emil Yaqubovun şeirlərinin toplanıb nəşr edilməsinə, ədəbi irsinin öyrənilməsinə gəlincə isə, ilk belə təşəbbüs uzaq 1992-ci ildə olub. Onun "Vətən sevgisi" adlı ilk şeirlər kitabı anadan olmasının 70 illiyinə dəyərli hədiyyə, onun əziz xatirəsinin əbədiləşdirilməsi yolunda ilk addım idi.

Əsl vətəndaş olan, doğma yurdunu böyük məhəbbətlə vəsf edən Emil Yaqubovun "Vətən sevgisi" kitabını yenidən nəşr etməkdə məqsəd onun şeirlərini daha geniş oxucu auditoriyasına çatdırmaq, gənc nəslin vətənpərvərlik ruhunun güclənməsinə daha bir töhfə verməkdir. Kitabda onun Nizamiyə, Şota Rustaveliyə, Puşkinə, Taras Şevçenkoya, Mirzə Fətəli Axundova, Mirzə Ələkbər Sabirə həsr etdiyi, eləcə də antifaşist şeirləri yer alır.

Sizə təqdim olunan bu kitab Emil Yaqubovun 95 illiyi münasibətilə Azərbaycan Dağ Yəhudiləri İcması və Avropa Azərbaycan Cəmiyyətinin təşəbbüsü və birgə səyi ilə TEAS Press Nəşriyyat Evi tərəfindən nəşr olunub.

# QƏHRƏMANLAR

*Çelyuskinçilərə*

İgid qəhrəmanların
komandanı Şmitdir,
O, böyük bir alimdir,
qorxubilməz igiddir.
Buzlu Şimala doğru
qızıl yol açdı onlar,
Gözlərindən orada
gur şəfəq saçdı onlar.
Dalğalanır orada
ölkənin al bayrağı,
Önlərində sonsuzluq,
önlərində buz dağı.
Gəlir bu gün onların,
gəlir xoş xəbərləri,
Alnıaçıq dönəcək
igidlərin hər biri.
Eşidib bu xəbəri
düşmən məyus olacaq,
Bizi sevməyənlərin
lap gözləri solacaq.
Bu zəfər bir həqiqət,
bu zəfər ki bir haqdır!
Adlarınız tarixdə
min il yaşayacaqdır!

*8 iyun, 1936-cı il, Quba*

# M.F.AXUNDOVA

Qarışıq zamandı, qanlı zamandı,
Mollalar, hacılar soyardı xalqı.
Torpağın, insanın halı yamandı,
Şahlar ac-yalavac qoyardı xalqı.
Mollalar, hacılar soyardı xalqı.

Ey böyük filosof, ey böyük insan,
Belə bir zamanda dünyaya gəldin.
Sıxdı məngənətək səni də dövran,
İnsanın, sənətin qədrini bildin,
Belə bir zamanda dünyaya gəldin.

Cahil vəzirlərə, şahlara qarşı
Ölməz sənətinlə üsyan yaratdın.
Axdı məzlumların, axdı göz yaşı,
Sən öz millətini göyə ucaltdın.
Ölməz sənətinlə üsyan yaratdın.

Doğma diyarında, öz torpağında
Parlaq əməllərin açmışdır çiçək.
Sənət dünyasında, sənət bağında
Gözlədi yolunu nurlu gələcək,
Parlaq əməllərin açmışdır çiçək!

Sən ey səhnəmizə incilər verən,
Adın yaraşıqdır ədəbiyyata.

Həyatda qırğınlar, tufanlar görən,
Sən dahi sənətkar, sən böyük ata,
Adın yaraşıqdır ədəbiyyata.

Bu azad Vətənin mərd insanları
Səni unutmamış, heç vaxt unutmaz.
Yazdığın incilər qəlbinin varı,
Adınla fəxr edir bu qoca Qafqaz,
Səni unutmamış, heç vaxt unutmaz!

*1936-cı il*

# SABİR ÜÇÜN

*Vəfatının 25 illiyi münasibətilə*

Yorulmaq bilməyirdin,
İl uzunu yazırdın.
Nə görürdün dünyada
Sən düzünü yazırdın.
Arayıb-axtarırdın
Örtülü mətləbləri,
Xalqa doğru söyləyir,
Xalqa doğru yozurdun.

Nifrət edirdin hər vaxt
Nadana, qanmazlara,
Eli zəlitək sorub,
Eldən utanmazlara.
Yurdunda haqsızlığı,
Fəlakəti görüncə
Səni şair ilhamın
Onda çəkərdi dara.

Yaratdığın incilər
Qəlbindədir ellərin,
Ad gününü unutmur,
Bayram edir ellərin.
Şairlər yarışında,
Şairlər sınağında
Səni al bayraq edib
Öndə gedir ellərin.

Qəm olubdur sirdaşın,
İllər boyu qəm, şair.
Hər misranda səslənir
Deyirəm bu qəm, şair.
Nəğmələrin əbədi
Yol yoldaşım olubdur,
Gərək səni dinləyəm,
Səninlə dinəm, şair.

Qalacaq bu dünyada,
Daim qalacaq adın.
İnsanlarla birlikdə
Zəfər çalacaq adın.
Sən bəşər tarixində
Ən nadir istedadsan.
Dünya ilə bərabər
Yaşa dolacaq adın!

*1936-cı il, Quba*

# PUŞKİNƏ

*Vəfatının 100 illiyi münasibətilə*

Yüz ildir ki, etmisən vəfat,
Yat! Yat, ey böyük şairim, yat!
Nələr yazdın, nələr andın?
Dantes gülləsiylə yaralandın.
Sevirdi ürəkdən insanlar səni,
Sürgün eyləmişdi niyə çar səni?
İzlərdi o səni, şeirini hər an,
Bacarsa verərdi ölümünə fərman,
Yamanca sıxırdı o dövran səni,
Sibir gözləyirdi hər zaman səni.
İndi nə çar qalıb, nə də o dövran,
Ellər ilham alır misralarından.
Nəğmən obalarda, ellərdə gəzir,
Adın dodaqlarda, dillərdə gəzir.
Dəyişib dünyada, dəyişib nə var,
Sevir səni, şair, sevir insanlar!

*1937-ci il, Quba*

# AZAD QADINA

Ey qəhrəman qadın, ey azad qadın,
İndi iftixarla çəkilir adın.
Nələr çəkməmişdi, nələr başınız?
Nahaqdan axıbdır hər göz yaşınız.
Qanlı keçmişləri gətirsən yada...
Nələr olmamışdır, nələr dünyada?..
İndi siz azadsız, qəlbiniz şaddır,
Qəlbiniz qüssədən, qəmdən azaddır!
Günbəgün boy atır, yüksəlirsiniz,
İşə də şad gedir, şad gəlirsiniz.
Çimnazlar, Bəstilər, Sonalar, indi
Olub taleyiniz sizə yar, indi!
Səkkiz mart bayramı, əziz bayramı
Bu gün alqışlayır, qeyd edir hamı!
Ey qəhrəman qadın, ey azad qadın!
İndi iftixarla çəkilir adın!

*6 mart, 1938-ci il, Quba*

# VƏTƏN SEVGİSİ

Dinləyin, a dostlar, Vətəndən deyim,
Ürək sözlərimi sizə söyləyim!
Böyük Vətənimiz çiçəkli bağdır,
Al-əlvan gülləri solmayacaqdır.
Biz ana Vətənin qucağındayıq,
Ömrün xoş çağında, sübh çağındayıq!
Belə bir diyarda nə qəm, nə kədər,
Vətənə sevgimiz ümmanlar qədər.
Yurdumun hər yanı güldür, çiçəkdir,
Möhtəşəm diyarım dünyada təkdir.
Xoşbəxtdir yurdumuz, şən Vətənimiz,
Bağında açılan gülləriyik biz.
Bir də nəzər salın yaşıl bağlara,
Zirvəsi dumanlı uca dağlara!
Baxınız göydəki ulduza, Aya,
Baxınız bu qədim, ulu dünyaya!
Baxınız qaynayan şən ölkəmizə,
Ulduza, günəşə tən ölkəmizə.
İnamla, qürurla yaşayıram mən,
Döyüşçü adını daşıyıram mən.
Əgər lazım gəlsə, Vətən uğrunda,
Bu güllü, bülbüllü gülşən uğrunda
Əziz canımı da qurban verərəm,
Ağır döyüşlərə sinə gərərəm!
Möhtəşəm Vətəni atan xaindir,
Yağıya, düşmənə satan xaindir.
Sən mənim varlığım, canımsan, Vətən!
Namusum, qeyrətim, qanımsan, Vətən!
Dünyada adımsan, canımsan, Vətən!

*1938-ci il, Quba*

# BÖYÜK GÜRCÜ ŞAİRİ ŞOTA RUSTAVELİYƏ

*"Pələng dərisi geymiş pəhləvan" əsərinin 750 illiyi münasibətilə*

Ey böyük şairim, ey Rustavelim,
Səni təbrik edir basılmaz elim!
Hörmətlə yad edir hamı bu adı,
Şeirin sənətkarı, şeirin ustadı.
Yaşar qəlbimizdə, yaşar hər zaman,
Elin nəğməkarı ellərə mehman.
Göylərin sonası gözəl Dərican,
Sevdiyi Tariyelə can söylədi, can.
Bizimlə yaşayır Tariyellərin,
Onlar köməyidir doğma ellərin.
Qəlblərdə nə ağrı, nə də yara var,
Nə qırğın, nə basqın, nə Tamara var.
Bağında, bağçanda açılır güllər,
Birlikdə yaşayır, işləyir ellər.
Bizimlə yaşayır, gülürsən sən də,
Nəğmən dillərdədir doğma vətəndə.
Bu ellər unutmur heç səni, şair,
Dünyanın əbədi sakini şair!

*30 dekabr, 1937-ci il, Quba*

# PAPANİNÇİLƏRƏ SALAM

Heyran etdi dünyanı
Sadovçular dəstəsi,
Alqışlayır onları
milyonların gur səsi.
Bu gün ellər sevinir,
bu gün ellər şad olur.
Ağır dərddən, kədərdən
düşmənləri boğulur.
Papaninlə fəxr edir,
öyünür bu Vətənim.
Ey qəhrəman Papanin,
təbrik edirlər səni.
Sizə "Sağ ol" deyirlər,
sizə "Yaşa!" deyirlər.
Ömrünüzü inamla
vurun başa deyirlər.
İnsan əli dəyməyən
Şimalı fəth etdiniz.
Başınızı dik tutub
siz inamla getdiniz.
Fəth etdiniz Şimalı,
fəth etdiniz buzları.
Sizə salam göndərir
səmanın ulduzları.

Bu ölkənin, bu elin
sədaqətli oğlusuz.
Öz sözündən dönməyən
dəyanətli oğlusuz.
Sizə salam deyirlər
hər ölkədən, obadan.
Mən də salamlayıram
bizim cənnət Qubadan!

*20 mart, 1938-ci il, Quba*

# GÖZƏLDİR

Günəş çıxır, işıq saçır hər yerə,
Gözəlləşir çəmən, aran, dağ, dərə
Heyran edir məni belə mənzərə,
Deyirəm ki, belə bahar gözəldir.

Yurdum yenə yaşıl paltar geyibdir,
Neçə zirvə mavi göyə dəyibdir,
Uca dağlar Vətənə baş əyibdir,
Torpağında nemət, bol bar gözəldir.

Mən ölkəmin hər yanını dolaşdım,
Güc toplayıb yoxuş çıxdım, dağ aşdım,
Gözəllikdən ilham alıb ha coşdum,
İnsanlarda namus, vüqar gözəldir.

Göylə uçan qatar-qatar durnalar,
Göllərində yaşılbaşlı sonalar,
Övladına layla deyən analar,
Sərin sular, gur bulaqlar gözəldir.

Bax ölkəmin hey soluna, sağına,
Tamaşa et bağçasına, bağına,
Nəzər yetir başı qarlı dağına,
Doğrudan da, belə diyar gözəldir!

*1938-ci il*

# AND

And olsun Vətənimin
qırmızı bayrağına,
And olsun əcdadımın
bu qızıl torpağına,
And olsun bu göylərə,
bu yerə, bu dənizə,
Əgər alçaq düşmənlər
hücum etsələr bizə,
Mən də bir əsgər kimi
cəbhəyə gedəcəyəm,
Hiyləgər düşmənləri
tar-mar edəcəyəm.
Mən onların başında
çaxacağam şimşəktək!
Döyüş meydanlarında
sarsılmaz odlu ürək!
Qoruyuram ölkəmin
torpağını, daşını,
Üzərəm bədənindən
düşmənlərin başını.
Almışam öz dərsimi
qədim, qorxmaz elimdən,
"Vətən" sözü düşməyir
bir an mənim dilimdən.
Vətən, dinlə sözümü,
Qurban verrəm gözümü.

Mən də əsgər sayıram
Hər bir zaman özümü.

Cəlladlara yer yoxdur
Vətənimin bağında,
Əzərik hər yağını
özünün torpağında.
Mehriban ana kimi
bəsləmiş Vətən bizi.
Biz də gərək qoruyaq
ana Vətənimizi.
Qoymarıq yurdumuzda
canavarlar ulasın,
Qoymarıq top-tüfənglər
bu yurdda guruldasın!
Bu yurdumuz adlanır:
azad ellər dünyası,
Can sənə qurban olsun
şad könüllər dünyası!

Mən bir qızıl əsgərəm,
Keşiyini çəkərəm.
Yad sənə əl uzatsa,
Lap başını əzərəm.
Əziz Vətən, yolunda
Öz canımdan keçərəm!

*20 sentyabr, 1939-cu il*

# HƏRBƏ QARŞI

Biz hərb istəmirik, hazırıq hərbə,
Vurarıq düşmənə sağalmaz zərbə.
Onda məlum olar Cənuba, Qərbə,
Dünyanın yenilməz ordusu bizik,
Faşizmin ən böyük qorxusu bizik.

Güllə yağış kimi göydən yağsa da,
Qanımız sel kimi yerdən axsa da,
Topların lüləsi bizə baxsa da,
Ey Vətən, bir an da atmarıq səni,
Yadlara, düşmənə satmarıq səni.

Biz Vətən oğluyuq, qorxmaz ərlərik,
Nəslimiz ər olmuş, susmaz ərlərik,
Quduz düşmənləri hər vaxt əzərik,
Dəhşətli, alovlu hərbdən qorxmuruq,
Şimaldan qorxmuruq, Qərbdən qorxmuruq.

Cantək qoruyarıq Vətənimizi,
Əzib məhv edərik düşmənimizi,
Nə ölüm, nə də qan qorxutmaz bizi,
Vətənim möhtəşəm, sarsılmaz qala!
İstərik hər zaman sarsılmaz qala!

*25 may, 1939-cu il*

# AND İÇİRƏM

Faşistlərin orduları
Ordumuza bata bilməz.
Nərə çəksəm, qorxusundan
Qəddar düşmən yata bilməz.
Dinlə mənim sözlərimi,
Yaraşıqlı, məğrur Vətən!
Qorxubilməz əsgərinəm,
Gur işıqlı məğrur Vətən!
Sabah döyüş meydanında
Vuruşaram mən ər kimi.
Yağıların qarşısında
Dayanaram mən nər kimi!
And içirəm Vətənimin
Bu gününə, sabahına.
Qurban demişəm canımı,
Qurban demişəm mən ona.
Sabah döyüş meydanında
Doğru olar sözüm mənim.
Bu sözlərim düz çıxmasa,
Qoy kor olsun gözüm mənim.
Bədniyyətli düşmən əgər
Qəsd eləsə torpağıma,
Onun qanı töküləcək
Hər bağçama, hər bağıma.
Yenilməzdir elim mənim,
Xalqım qalib gələcəkdir.
Dalğalanan bayrağımız
Ən işıqlı gələcəkdir!

*1939-cu il*

# GÖZƏL VƏTƏN

Gözəl Vətən, gözəl Vətən,
sən elimin bağısan,
Gözümüzün bəbəyisən,
qarasısan, ağısan.
Baxan sənə cənnət deyir,
baxan sənə gülüstan.
Hər bir aşiq, hər bir şair
qoşur sənə min dastan.
Doğrudan da, gülüstansan,
doğrudan da, cənnətsən.
Tayın yoxdur bu dünyada,
ey anamız, ey Vətən.
Buludları yarıb keçir
başı qarlı dağların.
Çiçəklidir, bülbüllüdür,
meyvəlidir bağların.
Hər tərəfdən eşidilir
maşınların gur səsi.
Qızıl dona bürünmüşdür
bizim Odlar ölkəsi.
Artıq yoxdur nə soltanlar,
nə paşalar, nə xanlar.
Məhv edilmiş, öldürülmüş
xalqa xain çıxanlar.
Gözəl Vətən, gözəl Vətən,
yüksələrək boy atdın.
Düşmənlərə qalib gəldin,
al-qanına boyadın.
İndi həyat çox şirindir,

insanlar da azaddır.
Sevgi azad, ilham azad,
dastanlar da azaddır.
Ah, nə xoşdur sənin kimi
bir Vətəndə yaşamaq.
Hər bir kəsə ilham verən
bir gülşəndə yaşamaq.
Ah, nə xoşdur sənə qəlbdən
ana demək, can demək.
Vuran qəlbim, görən gözüm,
mən sənə qurban demək.
Ah, nə xoşdur Vətən üçün
düşmənlərlə vuruşmaq.
Xaricilərdən üstümüzə
gələnlərlə vuruşmaq.
Zərbə vurmaq faşistlərə,
yad ölkədən gələnə,
Öz canını qurban vermək,
vuruşmaq dönə-dönə.
Xoşdur mənə yaşamaq da,
yaratmaq da, gülmək də.
El yolunda vuruşmaq da,
el yolunda ölmək də.
Vətən mənim ürəyimdir,
Vətən mənim gözümdür.
Dinləyiniz, a dostlarım,
bu mənim son sözümdür.
Gözəl Vətən, and içirəm
torpağına, daşına.
Bir daşını dəyişmərəm
min faşistin başına.

*23 iyun, 1939-cu il*

# DOSTLUQ

Dostlar, bu dünyada arzum budur ki,
Sizdən ayrılmayım ömrüm boyunca.
Baxıb işinizə fərəhlənim mən,
"Yaşasın dostlarım" deyim doyunca.

Şeir yazım mən sizə,
Xeyir yazım mən sizə,
Könlüm yenə əmr edir,
Deyir: – Yazım mən sizə.

Bizi kim ayırar bir-birimizdən,
Elə bir qüvvə yox ayırsın bizi.
Hamımız dostlarıq, hamımız birik,
Tale bir yaratmış ürəyimizi.

Bu dünyada heç zaman
Nə bir düşmən, nə şeytan
Ayıra bilməz bizi,
Biz ayığıq hər bir an.

Oxuyun, a dostlar, oxuyun bir də,
Oxuyun, dinləyim mən nəğmənizi.
Bilsəniz nə qədər şad oluram mən
Hər an dinlədikcə şən nəğmənizi.

Səsiniz bülbül səsi,
Artır hər vaxt nəşəsi.
Sizi görən adamın
Heç vaxt susmaz nəğməsi.

Niyə sevinməyək, niyə gülməyək,
Xoşbəxtik, can bizim, həyat bizimdir.
Aslandan güclüyük, igid ərlərik,
Koroğlu bizimdir, Qırat bizimdir.

Bizim ölkə bağ olsun,
Qüvvətimiz dağ olsun!
Mənim əziz dostlarım,
Odlar yurdu sağ olsun!

*1939-cu il*

# NİZAMİ

Ey böyük Nizami, ey dahi şair,
O qanlı zamanın şahidisən sən,
Ellərin köməyi, pənahı şair,
Yaxşının, yamanın şahidisən sən,
O qanlı zamanın şahidisən sən.

Quduz vəzirlərə, şahlara qarşı
Ölməz sözlərinlə üsyan yaratdın.
Axdı, dayanmadı xalqın göz yaşı,
Sən də çox ağladın, dərd-qəmə batdın,
Ölməz sözlərinlə üsyan yaratdın.

Şeiri, sənəti anlamayan şah
Sən kimi şairə qiymət vermədi.
Səndəki qüdrəti anlamayan şah
Dilini unudub, "Farsca yaz", — dedi,
Sən kimi şairə qiymət vermədi.

Ey şair, şahlara sən əyilmədin,
Söylədin üsyankar, iti sözünü.
Qorxmadın heç kəsdən, qorxu bilmədin.
Vüqarlı dağ kimi tutub özünü,
Söylədin üsyankar, iti sözünü.

Qaniçən şahların dövranı keçmiş,
İndi Vətənimiz şaddır, Nizami.

Leylilər, Məcnunlar tamam dəyişmiş.
Xalqıma qəm-qüssə yaddır, Nizami,
İndi Vətənimiz şaddır, Nizami.

Azaddır xalqımız, azaddır Vətən,
Yaşamaq gözəldir, şirindir indi.
Nizami, göylərdə polad at çapan
Həsrətin çəkdiyin Şirindir indi,
Yaşamaq gözəldir, şirindir indi.

Fərhad sərhəddədir, keşikdə durmuş,
Qorxmur düşmənlərdən o gənc qəhrəman.
Sərhədi pozanın alnından vurmuş,
Xalqın əziz oğlu, igid pəhləvan,
Qorxmur düşmənlərdən o gənc qəhrəman.

Sənin ana yurdun Azərbaycanın
Gül açan, sayrışan bağa dönübdür.
Artıq zülmü yoxdur bəyin və xanın.
Bu ölkə yenilməz dağa dönübdür,
Gül açan, sayrışan bağa dönübdür.

Səninlə fəxr edir bəxtiyar elin,
Böyük hörmətin var ellər içində,
Vüqarlı dağ kimi durmuş heykəlin
Çiçəkli-bülbüllü çöllər içində,
Böyük hörmətin var ellər içində.

Ey sənət bağının böyük bağbanı,
"Xəmsə"n bir günəşdir ədəbiyyata,

Tanıtdın dünyaya Azərbaycanı:
Bizim şeiriyyətə sən oldun ata,
"Xəmsə"n bir günəşdir ədəbiyyata.

Bütün millətlərin qəlbində varsan,
Xalqın unutmamış, unutmaz səni.
Şair, nə xoşbəxtsən, nə bəxtiyarsan
Ki hər vaxt xatırlar bu Qafqaz səni,
Xalqın unutmamış, unutmaz səni.

*1940-cı il*

# BAHAR

Bayram şənliyi var ellər içində,
Sonalar süzürlər göllər içində,
Gəlmiş gözəl bahar, sevimli bahar,
El gəzir, dolaşır güllər içində.

Ötür bülbüllər;
Şaddır könüllər.
Bahar eşqiylə
Açılır güllər.

Ölüm yada düşməz, həyat da şəndir,
Vətənim günbəgün gözəlləşəndir.
İgidlər oylağı doğma yurdumuz
Həqiqi cənnətdir, azad gülşəndir.

Etdin, ey bahar,
Ölkəmi gülzar.
Cəsurlar yurdu
Olmuş laləzar.

Əsir səhər-səhər sərin küləklər,
Bürümüş hər yanı güllər, çiçəklər.
Səadət içində yaşayırıq biz,
Bizdədir qorxmazlar, sağlam biləklər.

El bəxtiyarıdır,
Nə dərdi vardır.
Onun hər günü
Bir şən bahardır.

Ölkəmiz bəzənmiş, sanki gəlindir,
Ey Vətən, doğrudan, gəlhagəlindir.
Bu bayram, bu büsat, bu şərəf, bu şan
Deyir könüllərə gəl məni dindir.

Dayan, ruzigar,
Sənə sözüm var.
Doğma yurduma
Salamlar apar!

*Aprel, 1940-cı il*

# FAŞİZMƏ NİFRƏT

Faşizm insanlığa murdar ləkədir,
Zəhmətkeş xalqlara bir təhlükədir.
Ondan uzaq olan, ona yad olan
Bizim yurdumuzdur, bizim ölkədir.

Onun "Ölüm"[1] adlı bir "bağı" vardır,
Gündə on minlərlə "qonağı"[2] vardır.
Alçaq Hitler özü yaratmış onu,
Mussolini kimi dayağı vardır.

Günahsız qan tökmək ağır cinayət,
Elə bil göylərdən yağır cinayət.
Ellərin qəzəbi sönməyəcəkdir,
Alar cəzasını faşistlər, əlbət!

Mən də şair kimi hey coşam gərək,
Azad gələcəkçün vuruşam gərək.
Gəlin bir ağızdan deyək, a dostlar,
Yaşasın ölümsüz, xoşbəxt gələcək!

*1940-cı il*



[1] "Ölüm" – əsir düşərgəsi
[2] "Qonağı" – əsir

# QORXMAZ NƏSİL

Aslanıq, igidik, bəxtəvərlərik,
Heç kəsdən qorxmayan igid ərlərik.
Döyüş meydanında qoç Koroğlutək
Qalalar fəth edən cəngavərlərik.

Ərlərdən almışıq döyüş dərsini,
Kəsərik yağının dərhal səsini.
Düşmən, ayaq basma tunc sərhədlərə,
Qoymarıq çəkəsən sən nəfəsini.

Bizi qorxutmayır düşmən hədəsi,
Bizi qorxutmayır topların səsi.
Ay ellər, inanın, inanın bizə,
Qoymarıq yaxına heç bir nakəsi.

Qorxmazlar nəslidi bizim nəslimiz,
Döyüşlər içində böyümüşük biz.
Təslim olacaqdır bir zaman bizə
Dünyanın hər yeri, göy səma, dəniz.

Faşizm insanlığın qəddar düşməni,
Əgər hədələsə, ey Vətən, səni,
Hazırıq yolunda candan keçməyə,
Cantək qoruyarıq əziz Vətəni.

Qəlbimiz sulardan, büllurdan təmiz,
Mübariz dəstədir bizim dəstəmiz.
Qurbandır hər zaman Vətən yolunda
Son damla qanımız, son nəfəsimiz.

*1940-cı il*

# MƏN ƏSGƏR GEDİRƏM

Bu yurdun oğluyam, vətəndaşıyam,
Böyük bir ölkənin təməl daşıyam.
Dünyanı titrədən qüvvətimiz var,
Sülhün dayağıyam, hərbə qarşıyam.

Əlimdə parlayan oxdur, yaraqdır,
Bu ana torpağı qoruyacaqdır.
Kim bizim sərhədi keçmək istəsə,
Odlu tüfəngimlə vurulacaqdır.

Vətənim, əsgərəm, şanım var mənim,
Eşqinlə qaynayan qanım var mənim.
Düşmən girə bilməz güllü bağıma,
Dünyada adım var, sanım var mənim.

Girərəm döyüşə ər oğlu kimi,
Əzərəm düşməni Koroğlu kimi.
Mən onu qanına qəltan edərəm,
Vətənin övladı, nər oğlu kimi.

Yağının qəlbini dələcəyəm mən,
Adını həyatdan siləcəyəm mən,
Ölümdən qorxmuram, əsla qorxmuram,
Ölsəm, el yolunda öləcəyəm mən.

Qorxu bilməyirəm, mərdəm, qoçağam,
İnanın, ay ellər, nə qədər sağam,
Son damla qanadək, son nəfəsədək
Bu əziz Vətəni qoruyacağam!

*1940-cı il*

# ÖLKƏMİN

Yaşıl meşələri, yaşıl çölləri,
Şərbət bulaqları vardır ölkəmin.
Yaşılbaş sonalı mavi gölləri,
Sərin yaylaqları vardır ölkəmin.

Vətənim günəşdir, zülməti boğar,
Səf-səf dayanıbdır vüqarlı dağlar,
Qartal oylağımdır bu qarlı dağlar,
Necə xoş çağları vardır ölkəmin.

Basılmaz qalamdır, qalamdır mənim,
Olubdur əzəldən düşmənə qənim,
Eşqiylə yaşayım, eşqiylə dinim,
Gözəl oylaqları vardır ölkəmin.

Daim vəsf edirəm oğluyam deyə,
Heyranam qoynunda hər gözəlliyə,
And içər oğullar, gərək baş əyə,
Onda xoş çağları vardır ölkəmin.

*1940-cı il*

# AZƏRBAYCANIM

Bir zaman zalımlar taladı səni,
Çarlar da odlara qaladı səni,
Zaman barmağına doladı səni,
Sən nələr görmədin, Azərbaycanım?
Yada sirr vermədin, Azərbaycanım!

Doğdu günəş, çıxdın qəm libasından,
Qurtardın ələmdən, ölüm yasından,
Kim doyar bu günün xoş havasından?
Nizami vətəni – Azərbaycanım!
Füzuli məskəni – Azərbaycanım!

İgidlər yetirmiş gözəl torpağın,
Qeyrətin olmuşdur sənin dayağın,
Qorquddur bağbanı saldığın bağın,
Ey Babək vətəni, Azərbaycanım!
Koroğlu məskəni, Azərbaycanım!

"Qara qızıl" fontan vurur sinəndə,
İnsanlar yaradır, qurur sinəndə,
Mən də boy atıram bu gur sinəndə,
Ey ərlər vətəni, Azərbaycanım!
Cəsurlar məskəni, Azərbaycanım!

Neftin maşınlara güc-qüvvət verir,
Pambığın ölkəmə bol sərvət verir,

Adın ürəklərə mətanət verir,
Ey Vaqif vətəni, Azərbaycanım!
Sənə qurban olsun ciyərim, canım!

Adına deyirəm gülüstan, ölkəm,
Olmusan dillərdə bir dastan, ölkəm,
Gül açıb sinəndə Mil, Muğan, ölkəm,
Ey mənim günəşli Azərbaycanım!
Qurbandır uğrunda, qurbandır canım!

*1940-cı il*

# QIZILGÜL

Qızılgül, qızılgül, ətirli gülüm!
Bağlar bəzəyisən, çətirli gülüm!
Oxşar səhər-səhər küləklər səni,
Sevir mərd insanlar, ürəklər səni.
Ətrinə qərq olar bu çöl, bu çəmən,
Sənə tay deyildir nərgiz, yasəmən.
Sənsən çiçəklərin xanı, qızılgül,
Güllərin ürəyi, canı, qızılgül.
Sən gözəl yurduma ətir saçırsan,
Ruhu oxşayırsan, könül açırsan.
Vurğundur sevdalı könüllər sənə,
Bilirlər aşiqdir bülbüllər sənə.
Bağda dövrə vurur, hey dolanırlar,
Sənə çatmaq üçün eşqə yanırlar.
Yetir hicran vaxtı, ayrılan zaman
Bülbülün qəlbindən qopur ah, aman...
Bülbüllər hüsnünə aşiqsə necə,
Vətən vurğunuyam mən də eləcə.
Sevgim Vətənindir, sevgim dərindir,
Ana Vətən adlı o dilbərindir.
Dinlə sən arzumu, sən ey qızılgül,
Bir həyat eşqiylə çırpınır könül!

*21 avqust, 1940-cı il*

# ZƏFƏR NƏĞMƏSİ

Rəşadət, igidlik, qüvvət bizdədir,
Dağları titrədən qüdrət bizdədir,
Dünyanın xoş günü əlimizdədir,
Polad bir qaladır yurdumuz bizim!
Məğlubedilməzdir ordumuz bizim.

Biz məğlub olmarıq, qoy bilsin yadlar,
Dillərdə əzbərdir müqəddəs adlar,
Qorxutmaz bizləri alovlar, odlar,
Polad bir qaladır yurdumuz bizim!
Məğlubedilməzdir ordumuz bizim.

Biz Xasan gölündə qələbə çaldıq,
Samuraylardan da intiqam aldıq,
Hünərlə, zəfərlə daim ucaldıq,
Polad bir qaladır yurdumuz bizim!
Məğlubedilməzdir ordumuz bizim.

Gəlsə üstümüzə quldur dəstəsi,
Vurarıq biz ona ordu zərbəsi,
Onda oxuyarıq zəfər nəğməsi,
Polad bir qaladır yurdumuz bizim!
Məğlubedilməzdir ordumuz bizim.

*10 may, 1940-cı il*

# “QIZIL QUBA”YA

*“Qızıl Quba” qəzetinin*
*10 illiyi münasibətilə*

Elimizin çırağısan,
“Qızıl Quba”, “Qızıl Quba”.
Yolumuzun mayakısan,
“Qızıl Quba”, “Qızıl Quba”.
Sevir səni bu el, oba.

Atəş açdın tənbəllərə,
Zərbə vurdun əngəllərə,
Yol göstərdin bu ellərə,
“Qızıl Quba”, “Qızıl Quba”.
Sevir səni bu el, oba.

İfşa etdin hər yağını,
Qırdın xain bayrağını.
Söndürdün yad çırağını,
“Qızıl Quba”, “Qızıl Quba”!
Sevir səni bu el, oba.

Vur zərbəni hər düşmənə,
Keşikçi ol bu Vətənə,
Alqış sənə, salam sənə,
“Qızıl Quba”, “Qızıl Quba”!
Sevir səni bu el, oba.

Bu gün doldun on yaşa sən,
Yaşa, yaşa, min yaşa sən,
Arzumla dol min yaşa şən,
"Qızıl Quba", "Qızıl Quba"!
Sevir səni bu el, oba.

*1941-ci il*

# BİR GECƏ...

Təzəcə dolmuşdum iyirmi yaşa,
Vecimə almazdım hər dərdi-səri.
Bir gecə edərkən toya tamaşa
Sevdim bir mələyi, nazlı dilbəri.

Bir azdan duydum ki, ürəyim əsir
Ümidlə boylanıb o qızı görcək.
Məni bir baxışla eylədi əsir
Gözəllik bağında açan o çiçək.

Ürəyim döyündü, qanım qaynadı
Gözlərim hər dəfə onu görəndə.
Elə ki o dilbər toyda oynadı,
Məcnuntək ürəkdən vuruldum mən də.

Ürəyim döyünür, döyünür, aman,
Sinəmə amansız zərbələr vurur.
Qaçmaq istəyirəm, birdən bu zaman
Qəlbim əmr eləyir, deyir dayan, dur.

Baxıram üzünə, günəşə bənzər,
Gözünün ulduza vardır oxşarı.
Nə qədər doyunca salsam da nəzər,
Görmək istəyirəm yenə o yarı.

Aman, nə gözəldir onun gözləri,
Bütün cavanları heyran buraxır.
Birdən görürəm ki, sevdiyim pəri
Utana-utana üzümə baxır.

Böyük səadətdir, böyük səadət,
Utana-utana yar baxır mənə.
Deyirəm şirindir belə məhəbbət,
Əlbət, məhəbbəti var, baxır mənə.

Yavaşca toxunur qoluma o qız,
Neyləyim, utancaq bir cavanam mən.
Qəlbimdə deyirəm, ay parlaq ulduz,
Sənin eşqin ilə alışanam mən.

Üz tutub bir söz də deyə bilmirəm,
Mən utanan kimi o da utanır.
Məndən uzaqlaşır o nazlı sənəm,
Ancaq ürəyində məhəbbət yanır.

Aman, tək buraxdım mən o gözləri,
Qəlbimi, köksümü dağlayıram mən.
Qaçıb evimizə, alıb dəftəri
Şeiri yaza-yaza ağlayıram mən!

*30 yanvar, 1941-ci il*

# VƏTƏN

Vətən, mənim gözəlim,
Sənsən şeirim, qəzəlim.
Çıxmısan indi yasdan,
Olmusan dildə dastan.
Dərd-qəmi atmısan,
Al qumaşa batmısan.
Meyvəli bağların var,
Bəxtəvər çağların var.
Gözəl Vətən, ay Vətən,
Varmı sənə tay, Vətən?
Sən günəşsən, işıqsan,
Dünyaya yaraşıqsan.
Yüksəlib boy atmısan,
Aya, günə çatmısan.
Vüqarlısan dağ kimi,
Bəzənmisən bağ kimi.
Əcəb gözəl havan var,
Nə çən var, nə duman var.
Əsir sərin küləklər,
Şaddır burda ürəklər.
Səndə sevinc nəğməsi,
Milyonların gur səsi.
Bir də baxım hüsnünə,
Mən aşiqəm bu günə.

Aşiqəm sənə, Vətən,
Soruşsan ki, sən nədən
Aşiqsən belə mənə,
Onda deyərəm sənə,
Vətən, ay əziz anam,
Mən də gəncəm, cavanam.
Sinəndə boy atmışam,
Boya-başa çatmışam.
Vətən, səni min yaşa,
Tamaşasan, tamaşa!

# SEVİNC BAYRAMI

*1 Maya*

Baxın ölkəmizin dörd bir yanına,
Hava da təmizdir qəlbimiz kimi.
Bütün ürəklərdə sevinc qaynayır
Coşqun ümman kimi, gur dəniz kimi.

Təbiət bəzənmiş çiçəklər ilə,
Çiçəkli, bülbüllü çöllər gözəldir.
Baxsanız hər yana, deyərsiniz ki,
Dənizlər gözəldir, göllər gözəldir.

Dünyada heç belə şadlıqla keçən
İlhamlı, bəzəkli ay ola bilməz.
Bizim ölkəmiz ki günəşə bənzər,
Bəlkə, gün də buna tay ola bilməz.

Bizim Vətənimiz qızıl vətəndir,
Burda insanlarda min bir sevinc var.
Şadlıqdan quş kimi uçmaq istəyir
Kişilər, qadınlar, oğlanlar, qızlar.

Hər bir mayda gül açır dağlar, dərələr,
Bu gözəl bayramda ellər sevinir.
Bol məhsul yetirir ana torpaq da,
Muğanlar sevinir, Millər sevinir.

Hər 1 May xalqımızın sevinc bayramı,
Onunla qəlblərə ilham gəlibdir.
Sevinin, ay ellər, gülün, ay ellər,
Hamının sevdiyi bayram gəlibdir.

# ÜRƏK SÖZLƏRİM

Gözəl Vətən, mən aşiqəm üzünə,
Qurban olum çəməninə, düzünə,
Nə buyursan mən hazıram sözünə,
Mən hazıram keşiyində durmağa,
Düşmənlərə ağır zərbə vurmağa.

Can tüfəngim, sənsən mənim sirdaşım,
Cəbhələrdə, döyüşlərdə yoldaşım,
Bax nə deyir vətəndaşın, eldaşın,
Xainlərə, satqınlara zərbə vur,
Vur zərbəni, faşistə vur, hərbə vur.

Qəlbim deyir amansız ol davada,
Hünər göstər həm yerdə, həm havada,
Dörd bir yanın top, pulemyot olsa da,
Qorxma, döyüş, qorxma, vuruş ər kimi,
Əz düşməni qüvvətli əjdər kimi.

Mərd övladam, qorxubilməz əsgərəm,
Elim üçün öz canımdan keçərəm,
Düşmənləri otlar kimi biçərəm,
Alçaq düşmən yurdumuza neyləyər?
Polad kimi ordumuza neyləyər?!

Yadlar bizə bircə güllə atarsa,
Bircə əsgər al-qanına batarsa,

Tək bir xain bu vətəni satarsa,
Yaxşı bilsin, qoy inansın yağılar,
Zərbələrdən beyinləri dağılar.

Əmrinlə göstərər hünər, ey Vətən,
Əsgərindir bizim ellər, ey Vətən,
Lazım olsa mən də əgər, ey Vətən,
Vuruşa, döyüşə sinə gərərəm,
Öz canımı elə qurban verərəm!

# BAYATILAR

Əzizinəm, var ol sən,
Bağımızda bar ol sən.
İncitmə gəl oğlanı,
Ona nazlı yar ol sən.

Əzizinəm, ay gözəl,
Günəş gözəl, Ay gözəl.
Bizim qızlar içində
Varmı sənə tay, gözəl?

Əzizinəm, gülşəndir,
Bülbül şəndir, gül şəndir.
Azərbaycan ölkəsi
Laləzardır, gülşəndir.

Düşmən yolu qar olsun,
Xainlərə ar olsun!
Qorxaq ölsə, dərd deyil,
Qəhrəmanlar var olsun!

Əzizinəm, alçalar,
Çiçək açar alçalar.
Dostluğumuz pozulsa,
Düşmən gülüb əl çalar.

Araz üstə buzam mən,
Baharam mən, yazam mən.
Ey məni sevən oğlan,
Gəl, sən deyən qızam mən.

# RÜBAİLƏR

Zülmətdə olanlar günəş arzular,
Vərəmdən solanlar günəş arzular.
Zalımlar əlində əzilən xalqlar
Azadlıq, ilk bahar, günəş arzular.

Aman, nə gözəldir bu dağ, bu dərə,
Könlümə ruh verir bu xoş mənzərə.
Alqış təbiətə yaraşıq verən
Bağlarda gül əkib, gül dərənlərə.

Məndən soruşdular: "Cənnət hardadır?"
Hansı yaraşıqlı laləzardadır?
Dedim doğrusunu bilmək istəsən,
Cənnət öz kəndimdir, cənnət burdadır!

# T.Q.ŞEVÇENKOYA

*Anadan olmasının 125 illiyi münasibətilə*

Azaddır millətin, şaddır millətin.
İndi qiyməti var elmin, sənətin.
Şevçenko, sənin də bizim zamanda
Yüksəlmiş heykəlin, artmış hörmətin.

Bir vaxt vəsf etdiyin azad dünyada
El səni yad edir, hey salır yada.
İndi nəğmələrin dillərdə gəzir,
Zərbələr vurulmuş yağıya, yada.
Layiqli yerin var söz dünyasında,
Günəş dünyasında, göz dünyasında.
Vətənin fəxr edir, elin sevinir,
Yaşadır qəlbində, öz dünyasında.

Oxuyur, öyrənir hər nəfər səni,
Qəlbində yaşadır bu ellər səni.
Bu dünya durduqca yaşadacaqdır
Gələcək bəxtəvər nəsillər səni!

# GƏNCLİYİM

Gənclər ordusuyuq, yenilməzik biz,
Yaratmaq eşqiylə vurur qəlbimiz.
Yadlar torpağıma ayaq basarsa,
Düşmənə həddini bildirəcəyiz.

Yarışda zamanı yoranlar bizik,
Zavodlar, fabriklər quranlar bizik.
Vətən anamızdır, mərd övlad kimi
Onun keşiyində duranlar bizik.

Günəşli yurdumuz nərlər yurdudur,
Aslanlar yurdudur, şirlər yurdudur.
Sevib torpağını göz bəbəyitək
Xariqə yaradan ərlər yurdudur.

Gəncliyim basılmaz, gəncliyim işıq,
Odur Vətənimə günəş, yaraşıq.
Gəncliyin bu əziz xoş bayramında
Sədəfli sazını sən də çal, aşıq!

# QANADLI QIZ

Uç yenə göylərə xəyalım kimi,
Qalın buludları yar, qanadlı qız.
Hamını heyran et uçuşunla sən,
Deyim igidliyin var, qanadlı qız.

Sən ey Vətənimin solmaz çiçəyi,
Ucalt bu ölkənin təmiz adını.
Milyon insanların budur diləyi,
Ey azad ölkənin azad qadını.

Bax, yenə göylərdə uçur bir şahin,
Ona təsir etmir nə boran, nə qar.
Olubdur qonağı uca göylərin,
Yoluna nur saçır parlaq ulduzlar.

"Mənə öz vətənim vermişdi həyat,
Mən ona borcluyam!" – belə söyləyir.
O, yenə yüksəkdə çalaraq qanad,
Ucadan: "Yaşasın diyarım!" – deyir!

Nəşriyyat redaktoru: Famil Cəfərli
Korrektor: Flora Əliyeva
Dizayner: Sevinc Ələkbərova

Çapa imzalanıb: 30.04.2017
Kağız formatı: 64 X 90 $^{1}/_{32}$
Fiziki çap vərəqi: 2

*Biz Vətən oğluyuq, qorxmaz ərlərik,*
*Nəslimiz ər olmuş, susmaz ərlərik,*
*Quduz düşmənləri hər vaxt əzərik,*
*Dəhşətli, alovlu hərbdən qorxmuruq,*
*Şimaldan qorxmuruq, Qərbdən qorxmuruq.*

Oxuculara təqdim olunan bu kitabda cəmi 20 il ömür yaşamış qubalı gəncin şeirləri toplanıb. Yaradıcılığa erkən başlayan, fitri istedadı çox tez parlayan, öz şeirləri ilə hətta böyük Səməd Vurğunun da diqqətini cəlb edərək ondan xeyir-dua alan Emil Yaqubov şeirlərində cəhaləti və geriliyi qamçılayır, Vətənə, insanlara sevgini tərənnüm edir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

ISBN 978-9952-515-08-4
9 789952 515084
www.teaspress.az
TEAS PRESS